# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DƏYİŞİKLİKLƏR və əlavələr (maddə 152-158)

TƏLİMÇİ:

RİZVAN FİKRƏTOĞLU
0513461438



# Maddə 152. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklərin qəbul edilməsi qaydası

## XI fəsil

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA DƏYİŞİKLİKLƏR

**AR Konstitusiyasının mətnində dəyişikliklər yalnız referendumla qəbul edilə bilər.**

# Maddə 153. Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklərin təklif edilməsi qaydası

**AR Konstitusiyasının mətnində dəyişiklikləri AR-ın MM-i və ya AR-ın Prezidenti təklif etdikdə, təklif olunan dəyişikliklərə dair əvvəlcədən AR *Konstitusiya Məhkəməsinin rəyi alınır.***

# Maddə 154. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin səlahiyyətlərinin məhdudlaşdırılması

**AR-ın Konstitusiya Məhkəməsi referendumla qəbul olunmuş AR Konstitusiyasının mətnində dəyişikliklərə dair qərar qəbul edə bilməz.**

# Maddə 155. Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması

**Bu Konstitusiyanın 1-ci, 2-ci, 6-cı, 7-ci, 8-ci və 21-ci maddələrində *dəyişikliklər və ya onların ləğv edilməsi haqqında*, III fəslində nəzərdə tutulmuş insan və vətəndaş hüquqları və azadlıqlarının ləğvi və ya AR-ın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırılması haqqında təkliflər referenduma çıxarıla bilməz.**

# Dəyişiklik və ya ləğv oluna bilməyən maddələr:

- **Maddə 1. HAKİMİYYƏTİN MƏNBƏYİ;**
- **Maddə 2. XALQIN SUVERENLİYİ;**
- **Maddə 6. HAKİMİYYƏTİN MƏNİMSƏNİLMƏSİNƏ YOL VERİLMƏMƏSİ;**
- **Maddə 7. AZƏRBAYCAN DÖVLƏTİ;**
- **Maddə 8. AZƏRBAYCAN DÖVLƏTİNİN BAŞÇISI;**
- **Maddə 21. DÖVLƏT DİLİ.**

# Maddə 156. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin qəbul edilməsi qaydası

XII fəsil

## AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINA ƏLAVƏLƏR

- AR Konstitusiyasına əlavələr AR-ın MM-də 95 səs çoxluğu ilə Konstitusiya qanunları şəklində qəbul edilir.
- AR-ın Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları AR-ın MM-də iki dəfə səsə qoyulur. İkinci səsvermə birinci səsvermədən 6 ay sonra keçirilir.
- AR-ın Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları həm birinci, həm də ikinci səsvermədən sonra bu konstitusiyada qanunlar üçün nəzərdə tutulmuş qaydada AR Prezidentinə imzalanmaq üçün təqdim olunur.
- AR-ın Konstitusiyasına əlavələr haqqında Konstitusiya qanunları AR-ın Prezidenti tərəfindən ikinci səsvermədən sonra imzalandıqda qüvvəyə minir.
- Konstitusiya qanunları AR Konstitusiyasının ayrılmaz hissəsidir və AR Konstitusiyasının əsas mətninə zidd olmamalıdır.

# Maddə 157. Azərbaycan Respublikası Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsü

**AR-ın Konstitusiyasına əlavələri AR-ın Prezidenti və ya AR MM-nun azı 63 deputatı təklif edə bilərlər.**

# Maddə 158. Azərbaycan Respublikasının Konstitusiyasına əlavələrin təklif edilməsi təşəbbüsünün məhdudlaşdırılması

**Bu Konstitusiyanın birinci bölməsində əks etdirilmiş müddəalarla əlaqədar AR Konstitusiyasına əlavələr təklif edilə bilməz.**